Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında
İctimai şura ilə bağlı 2024-cü ildə görülən işlərə dair

HESABAT

İctimai şura

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai şura "İctimai iştirakçılıq haqqında" Qanuna uyğun olaraq, Nazirlik üzrə hüquqi aktların qəbulunda və fəaliyyət istiqamətləri ilə bağlı ictimai nəzarətin təşkilində vətəndaş cəmiyyəti institutlarının iştirakının təmin olunması məqsədilə yaradılıb.

İctimai şuranın 9 nəfərlik tərkibi 2023-cü il 29 mart tarixində keçirilmiş səsvermə nəticəsində seçilib. Şuranın üzvlərini vətəndaş cəmiyyəti institutunun nümayəndələrindən ibarət 142 seçici müəyyən edib.

Nazirliyin saytında müvafiq məlumatların dərci

İctimai şura ilə bağlı məlumatlar Nazirliyin www.sosial.gov.az rəsmi internet saytının ön səhifəsindəki "Nazirlik" bölməsinin "İctimai şura" altbölməsində dərc edilir.

Bundan başqa, yeni qanunvericilik layihələri ictimai müzakirə üçün saytın "Qanunvericilik layihələri" altbölməsində təqdim edilir.

İctimai şuranın 2024-cü ildə fəaliyyəti

Nazirlik rəhbərliyinin iştirakı ilə İctimai şura üzvlərinin 22 iclası keçirilib, aparılan sosial islahatlar, sosial müdafiə tədbirləri müzakirə olunub.

İctimai şuranın Nazirliyin bütün qurumlarında 14 görüşü təşkil olunub. Bu görüşlərdə həmin qurumların fəaliyyəti, yeni layihələri barədə şura üzvlərinə təqdimatlar edilib, onlarla birgə müzakirələr aparılıb.

Nazirlik yanında İctimai şura ictimaishura.az saytında keçirilən sorğuya əsasən, 2024-cü ildə 19 mərkəzi icra hakimiyyəti orqanı yanında fəaliyyət göstərən ictimai şuralar arasında "İlin ən fəal İctimai şurası" seçilib.

Yeni 11 normativ-hüquqi aktların layihələri şura üzvlərinə təqdim olunaraq, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi işlərində rəy və təklifləri öyrənilib.

İctimai şura üzvlərinə sosial islahatlara, yeni sosial müdafiə proqramlarına dair ətraflı məlumatlanmaları və müvafiq mövzularda ictimai məlumatlandırmada əsaslanmaları üçün 19 arayış təqdim edilib.

İctimai şura üzvləri üçün sosial sahədə yeniliklərlə bağlı təqdimatlar edilib. E-sosial.az portalının və mobil əlavəsinin funksional imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin və s. müzakirəsi olub.

Sosial müdafiə tədbirlərində, həmçinin mənzil və avtomobillərin təqdim edilməsi tədbirlərində İctimai şura üzvlərinin iştirakı təmin edilib.

Nazirliyin DOST TV – internet televiziyasında yayımlanan "Sosial saat" verilişində Nazirlik yanında İctimai şuranın sədri, professor Elşad Məmmədov qonaq qismində dəvət edilib. İctimai şuranın fəaliyyətindən, ictimai iştirakçılığın təmin edilməsi sahəsində görülən işlərdən bəhs olunub. Bununla yanaşı, Real TV-nin "Obyektiv" verilişində "İnklüziv Cəmiyyət Naminə Əlilliyi Olan Şəxslərə Dəstək" İB-nın sədri Ramilə Mahmudova, "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası"nın İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov, "Vətəndaşların Sosial Rifahı Naminə" İB-nın sədri İradə Rizazadə, "Mərhəmət" Kimsəsizlərə Yardım" İB-nın üzvü Aslan Əzimzadə,

“İnformasiya və Sosial Təşəbbüslərə Dəstək” İB-nın sədri Cəsarət Hüseynzadə, "Təmiz Dünya” Qadınlara Yardım İB-nın sədri Mehriban Zeynalova, “Sosial-iqtisadi və kənd təsərrüfatının inkişafına dəstək” İB-nın sədri Zülfiyyə Nuriyeva da iştirak edərək müsahibə veriblər.

2024-cü il 27 aprel tarixində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində “İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri” mövzusunda keçirilən konfransda İctimai şuranın sədri və üzvünün iştirakı təmin edilib, habelə “İnformasiya və Sosial Təşəbbüslərə Dəstək” İB-nın sədri Cəsarət Hüseynzadə və ”Sosial Hüquqların Araşdırılması” İB-nın sədri Mayis Əliyev əmək və sosial müdafiə sahəsində ictimai maarifləndirməyə verdiyi dəstəyə görə mükafatlandırılıb.

2024-cü il 16 iyul tarixində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində fəaliyyətini uğurla başa vuran 70-dən çox “İnklüziv DOST” könüllüsünə sertifikatların təqdimat mərasimi keçirilib. Tədbirdə Nazirlik yanında İctimai şuranın sədri Elşad Məmmədov, sədr müavini Bəhruz Məmmədzadə, üzvləri İradə Rizazadə və Aslan Əzimzadə iştirak ediblər.

Sosial sifarişlər əsasında sosial xidmətlərin göstərilməsi ixtisaslaşmış QHT-lər ilə əməkdaşlıq müstəvisində yerinə yetirilib.

Bununla yanaşı, Qarabağ müharibəsi, 20 Yanvar, Çernobıl AES qəzası nəticəsində əlilliyi olan şəxslər, gözdən əlilliyi olan şəxslər, müharibə veteranları və digər əhali qrupları üzrə ictimai birliklərin rəhbərləri ilə vaxtaşırı görüşlər keçirilib, onların rəy və təklifləri dinlənilib, bu və ya digər aidiyyəti məsələlərə dair ictimai dinləmələr və məsləhətləşmələr həyata keçirilib.

Nazirliyin strukturuna daxil olan və tabeliyində olan qurumlarda müvafiq mövzulara dair 20 ictimai dinləmə keçirilib.

Şura üzvləri və digər QHT-lərin Nazirliyin sosial xidmət və reabilitasiya müəssisələrinə 13 tanışlıq səfəri təşkil olunub, onlar həmin müəssisələrdə göstərilən xidmətlərin vəziyyəti ilə yerindəcə tanış olaraq öz rəylərini Nazirliyə təqdim ediblər.

Nazirliyin strukturuna daxil olan və tabeliyində olan qurumlar tərəfindən təşkil edilən infoturlarda Nazirlik yanında İctimai şuranın üzvlərinin də iştirakı təmin olunub.